

Mənə görə böyük ədəbiyyat xoşbəxtlərin paradı deyil! Sevincdən süzülüb qalan kədərdi. Söz də dayanmış zaman formasıdır.

Məncə, sözünü zamana yox, əbədiyyətə hesablayanlar əsl ədəbiyyar adamlarıdır. Bu mənada, Anar müəllim qeyri-şərtsiz XX-XXI əsr Azərbaycan ədəbiyyatının fikir və bədii düşüncə tərzinin əvəzolunmaz şəxsiyyətlərindən biridir. Anarsız Azərbaycan ədəbiyyatının tarixi kitabları çoxlu sayda ağ səhifələrdən ibarət olardı. Anar, məncə, təkcə yazıçı kimi deyil, böyük fikir və düşüncə adamı kimi öz adını Azərbaycan xalqının yaddaşına yazan böyük söz ustalarından biridir. Bu gün "qəm pəncərəsi"ndən bütöv bir nəslə dünyanı olduğu kimi göstərən böyük sənətkarın doğum günüdür.

Doğum günün qutlu olsun böyük usta!

*Rüstəm BEHRUDİ*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 18 mart.- S. 2.